2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 03 yanvar 2015-ci il tarixli 116 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 05 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 57 saylı Kürdəmir seçki dairəsindən Şilyan bələdiyyəsinə qeydə alınmış namizəd İbrahimov Sahib Mayıl oğlunun dairənin əhatə etdiyi 18, 19 və 20 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokolların surətlərinin ona verilməməsi barədə 2015-ci il yanvarın 3-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir

Araşdırma ilə müəyyən edilmişdir ki, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur və ona görə də aidiyyəti üzrə 57 saylı Kürdəmir seçki dairəsi dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair rəy verilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizəd İbrahimov Sahib Mayıl oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 03 yanvar 2015-ci il tarixli 116 saylı müraciəti 57 saylı Kürdəmir seçki dairəsi dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov